AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

ELM VƏ ALİ TƏHSİL ÜZRƏ
DÖVLƏT AGENTLİYİ

HTP
HÖKUMƏTLƏRARASI
TƏQAÜD PROQRAMLARI

# Mərakeş Krallığında Təhsil

## Hökumətlərarası Təqaüd Proqramı (HTP) – 2026/2027



**İndi müraciət et: [www.portal.edu.az](http://www.portal.edu.az)**

**Ümumi məlumat**

Təqaüd proqramı Azərbaycan Respublikası Prezidentinin 31 mart 2026-cı il tarixli Fərmanı ilə təsdiqlənmiş 16 fevral 2026-cı il tarixli Rabat şəhərində imzalanmış "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Mərakeş Krallığının Ali Təhsil, Elmi Tədqiqat və İnnovasiya Nazirliyi arasında elm və ali təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"ə uyğun olaraq Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi (EATDA) tərəfindən həyata keçirilir.

**Təhsil səviyyələri**

Proqram çərçivəsində **bakalavriat, magistratura və doktorantura** təhsil səviyyələri üzrə təhsil almaq imkanı mövcuddur.

**Kvota:** Təqaüd proqramı çərçivəsində ümumilikdə **10 yer** ayrılmışdır.

**Tədris dili**

- Tədris proqramından asılı olaraq təhsil **fransız və ya ərəb** dillərində həyata keçirilir;
- Elmi, texniki və iqtisadi sahələr üzrə təhsil proqramlarının əksəriyyəti **fransız** dilində tədris olunur;
- **"Ərəb dili və ədəbiyyatı"** və **"İslamşünaslıq"** ixtisasları ərəb dilində tədris edilir;
- **"Hüquq elmləri"** ixtisası üzrə tədris **ərəb və ya fransız** dillərində aparılır;
- Bakalavriat səviyyəsinə qəbul olunan və fransız dilini kifayət qədər bilməyən namizədlər Mərakeş Beynəlxalq Əməkdaşlıq Agentliyinin (AMCI) tabeliyində fəaliyyət göstərən Beynəlxalq Dil Mərkəzində 2026/2027-ci tədris ili ərzində fransız dili üzrə hazırlıq kurslarına cəlb ediləcəklər;
- Magistratura və doktorantura səviyyələrinə qəbul olunan və fransız dilini kifayət qədər bilməyən namizədlər akkreditə olunmuş dil mərkəzləri və müəssisələrindən əldə etdikləri fransız dili üzrə sertifikat təqdim etməlidirlər.

Təqaüd proqramı çərçivəsində təklif edilən universitet və ixtisasların siyahısı keçid vasitəsi ilə əldə edilə bilər. Namizədlər prioritetlik gözlənilməklə qəbul meyarlarını diqqətlə araşdırmaqla ən çox **3 universitet** seçə bilərlər.

**Müraciət üçün son tarix – 06.08.2026-cı il saat 23:59-dək (GMT+4, Bakı vaxtı ilə)**

**Müraciət forması**

- Təqaüd proqramına müraciət edəcək iddiaçılar Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin elektron ərizə sisteminə müraciət etməlidirlər - https://portal.edu.az/ ;
- Mərakeşdə akkreditə olunmuş diplomatik nümayəndəliklərin əməkdaşları və onların ailə üzvləri təhsil almaq istədikləri halda müraciət sənədlərini Mərakeş Krallığının Xarici İşlər, Afrika Əməkdaşlığı və Xaricdə Yaşayan Mərakeşlilər Nazirliyinin aidiyyəti qurumuna təqdim etməlidirlər. Bu kateqoriyaya aid şəxslərin müraciətləri diplomatik kanallar vasitəsilə nəzərdən keçirilir və onlar AMCI təqaüd proqramı çərçivəsində nəzərdə tutulan təqaüdlərdən yararlana bilməzlər;
- EATDA tərəfindən namizədliyi təsdiq olunmuş şəxslərin adları Mərakeş tərəfinə 2026-cı ilin avqust ayında təqdim ediləcəkdir;
- Yekun təsdiq qərarı yalnız qəbul edən ali təhsil müəssisəsi və Mərakeş tərəfinin səlahiyyətli qurumu tərəfindən verilir.

**Maliyyələşmə**

**Təqaüd proqramı aşağıdakı xərcləri əhatə edir (Mərakeş Krallığı tərəfindən):**

- Təhsil haqqı;
- Aylıq təqaüd;
- Tibbi sığorta, Mərakeş Krallığının qanunvericiliyinə uyğun olaraq tibbi xidmətlərdən istifadə imkanı;
- Mövcud yerlər çərçivəsində universitet yataqxanasında yerləşmə imkanı;
- Dissertasiya və tezislərin çapı üçün birdəfəlik maliyyə yardımı (magistratura və doktorantura səviyyəsində təhsil alan tələbələr üçün).

**Aylıq təqaüdün məbləği** təhsil səviyyəsindən və təhsil müddətindən asılı olmayaraq **750 Mərakeş dirhəmi** (təxminən **80 ABŞ dolları**) təşkil edir. Təqaüd hər tədris ili üzrə **sentyabr–avqust** aylarını əhatə edir və yalnız tələbənin ali təhsil müəssisəsində faktiki təhsil aldığı müddət üçün ödənilir.

**Təqaüd proqramı aşağıdakı xərcləri əhatə etmir:**

- Qeydiyyat və inzibati rəsmiləşdirmə haqları;

- Yataqxana ödənişləri (universitet yataqxanalarında yaşayış müddəti maksimum 3 ildir);
- Nəqliyyat xərcləri;
- Texniki ixtisaslar üzrə tələb oluna bilən xüsusi avadanlıq və ya materialların alınması ilə bağlı xərclər;
- Təhsil müddəti ərzində yaranan digər şəxsi xərclər.

**Qeyd:** Bəzi texniki ixtisaslar, xüsusilə peşə təhsili müəssisələrində tədris olunan proqramlar üzrə xüsusi avadanlıq və ya materiallardan istifadə tələb olunduğuna görə **100–1000 Mərakeş dirhəmi** (təxminən **10–100 ABŞ dolları**) məbləğində əlavə ödənişlər tətbiq oluna bilər.

**Müraciət üçün əsas meyarlar**

**Namizədlər aşağıdakı tələblərə cavab verməlidirlər:**

- Bakalavriatdan sonrakı təhsil səviyyələrinə müraciət edən iddiaçıların ali təhsil haqqında diplom üzrə ixtisasın xaricdə oxumaq üçün seçdiyi ixtisaslara uyğun olması tövsiyə olunur (ixtisasların uyğunluğu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 dekabr 2024-cü il 503 nömrəli Qərarı ilə təsdiq edilmiş ixtisasların təsnifatına əsasən müəyyən olunur);
- İddiaçıların seçdiyi hər bir ixtisasın eyni ixtisas istiqaməti üzrə olması tövsiyə olunur;
- Attestat üzrə cari müvəffəqiyyət dərəcəsinin orta balı 5 ballıq sistem üzrə 4 baldan aşağı olmamalıdır (Bakalavriat səviyyəsinə müraciət edənlərə şamil olunur);
- Bakalavriat səviyyəsi üzrə müraciət edən şəxslərin yaşı təhsil müəssisəsindən və proqramdan asılı olaraq **19–23** yaş arasında olmalıdır;
- Bakalavriat və ya magistratura təhsil səviyyələri üzrə təhsil almaq istəyən şəxslər ölkənin ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə tələbə qəbulu üzrə aparılan test imtahanları çərçivəsində texniki və texnoloji, təbiət, kənd təsərrüfatı, səhiyyə, rifah və xidmət, əsas (baza 4 ali) tibb təhsili və xüsusi təyinatlı ixtisas qrupları üzrə yekun olaraq ən azı 350, digər sahələr üzrə ən azı 400 bal toplamalıdırlar;
- 2025/2026-cı tədris ili üzrə ümumtəhsil müəssisələrindən məzun olan Dövlət İmtahan Mərkəzinin (DİM) imtahanlarında iştirak etməyən iddiaçıların (əvvəlki illərin məzunları da daxil olmaqla) akademik göstəricilərini sübut edən beynəlxalq səviyyədə tanınan imtahan və ya beynəlxalq olimpiada nəticələri (SAT,

qızıl/gümüş/bürünc medal sahibi və s.) həmin sahə üzrə mümkün olan ən yüksək göstəricinin 70%-indən az olmamalıdır;

- DİM imtahanlarında iştirak etməyən əvvəlki illərin məzunu olan iddiaçıların öncəki bənddə tələb olunan göstərici ilə yanaşı, attestat üzrə cari müvəffəqiyyət dərəcəsinin orta balı 100 ballıq sistem üzrə isə 80 (və ya bunun ekvivalenti) baldan aşağı olmamalıdır. DİM imtahanlarında iştirak etmiş orta ixtisas diplomu olan şəxslərə də bu qayda aid edilir;
- Ölkənin yerli ali təhsil müəssisələrində bakalavriat, magistratura və doktorantura səviyyələrində təhsil alan şəxslər təhsillərinin 50%-dən çoxunu tamamlamamış olmalıdır;
- Magistratura və ya doktorantura səviyyəsinə müraciət edən iddiaçıların əvvəlki təhsil səviyyəsi üzrə ÜOMG 100 ballıq sistem üzrə 80 baldan aşağı olmamalıdır. Hazırda təhsil aldığı eyni səviyyə üzrə müraciət edən iddiaçıların cari ÜOMG də 100 ballıq sistem üzrə 80 baldan aşağı olmamalıdır;
- “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” və “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022- 2028-ci illər üçün Dövlət Proqramı” çərçivəsində təhsil almış, lakin Elm və Təhsil Nazirliyi ilə imzaladığı müqaviləyə əsasən, 5 il ərzində ölkədə işləmək öhdəliyini yerinə yetirməmiş məzunların sənədləri qəbul edilməyəcəkdir;
- “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 5.4-cü bəndinə əsasən (...dövlət ortaixtisas təhsilində və ali təhsilin hər bir səviyyəsində qanunvericiliyə uyğun olaraqtəhsilalanların yalnız bir dəfə pulsuz təhsil almaq hüququnu təmin edir), Azərbaycan ali təhsilmüəssisələrində 6 yaxud xaricdə dövlət hesabına təhsil almış şəxslər eyni təhsil səviyyəsi üzrə yenidən müraciət edə bilməzlər.

  **Qeyd:** Namizədlər, bir akademik ildə ilkin seçimi EATDA tərəfindən aparılan yalnız bir ölkənin təqaüd proqramına müraciət edə bilərlər.

- Yekun təsdiq qərarı yalnız qəbul edən ali təhsil müəssisəsi və Mərakeş tərəfinin səlahiyyətli qurumu tərəfindən verilir.

**Tələb olunan sənədlər**

- Doğum haqqında şəhadətnamə;
- Şəxsiyyət vəsiqəsi;
- Pasport;

- Məhkumluq barədə arayış;
- Sağlamlıq haqqında tibbi arayış, yoluxucu xəstəliklərin və tuberkulyoz olmamasına dair tibbi arayış;
- Attestat və ya qiymətlər göstərilməklə hazırda orta məktəbin son ilində təhsil aldığına dair arayış (bakalavriat səviyyəsi üzrə müraciət edənlər üçün);
- Bakalavriat təhsili üzrə diplom və diploma əlavə (magistratura səviyyəsi üzrə müraciət edənlər üçün);
- Bakalavriat və magistratura təhsili üzrə diplom və diploma əlavə (doktorantura səviyyəsi üzrə müraciət edənlər üçün);
- Magistr dissertasiyası və doktorluq tədqiqat layihəsi (doktorantura səviyyəsi üzrə müraciət edənlər üçün).

**Qeyd 1:** Bütün sənədlər iki nüsxədə – **orijinal və fransız** dilinə tərcümə edilmiş formada təqdim edilməlidir.

**Qeyd 2:** Təqaüd proqramı çərçivəsində təhsil almaq hüququ qazanan tələbələrin ixtisas və universitetlərinin dəyişdirilməsi mümkün deyil.

**EATDA ilə əlaqə**

Təqaüd proqramı ilə bağlı suallarınızı htpinfo@eatda.edu.az elektron poçtuna ünvanlaya bilərsiniz.